# "Gənclər danışsın, biz dinləyək" mövzusunda panel iclas keçirilib






**XII Qlobal Bakı Forumunun sonuncu günündə 11-ci panel iclası "Gənclər danışsın, biz dinləyək" mövzusuna həsr olunub.**

AZƏRTAC xəbər verir ki, panel iclasına Qlobal Siyasət İnstitutunda tədqiqatçı və Lafiya Nigeriya Fondunun təsisçisi Klaudia Marta Xmielovska moderatorluq edib.

Paneldə çıxış edən Harvard Biznes Məktəbində MBA tələbəsi və "Terran Paragon" təşkilatının qurucusu və icraçı direktoru Uilliam Uanq bildirib ki, onun təşkilatı qlobal istedadı inkişaf etməkdə olan ölkələrlə birləşdirmək, bilik mübadiləsini təşviq etmək və XXI əsrin bilik iqtisadiyyatını qabaqcıl şirkətlər və dövlət qurumları ilə strateji tərəfdaşlıqlar vasitəsilə irəlilətmək məqsədini güdür: "Bizim şirkətimiz gənclərə kömək edir, çünki gələcəkdə onlar liderlər olacaqlar. Biz gənclərə hər sahədə kömək etməyə hazırıq". O, həmçinin özünün iş və təhsil təcrübəsini bölüşüb.

"De Jong Capital"da Baş ofis rəhbəri (Managing Partner Büro rəhbəri) Paskal Rathle təmsil etdiyi şirkətin strategiyası və fəaliyyəti haqqında məlumat verib.

"ABŞ-də bir şirkətdə baş icraçı direktorun maaşı sıravi işçilərin məvacibindən 40 dəfə çoxdur, bu, nə dərəcədə düzgündür? Belə ədalətsiz gəlir bölgüləri qarşısında gənclərin işlə təmin olunması və öz rifahını yüksəltməsi üçün heç bir motivasiya qalmır. Etikaya sadiqlik, bərabər bölgü məsələləri prioritet olmalıdır", - deyə o əlavə edib.

"DIFC Authority"də Qrup Strategiyası üzrə köməkçi menecer Milind Taneja bildirib ki, bir çox inkişaf etməkdə olan ölkələrdə dövlət büdcəsinin 50 faizdən çoxu borcların və kreditlərin ödənilməsinə sərf edilir. Bu isə o deməkdir ki, onlar nə evlər tikməyə, nə təmiz enerji keçidləri üçün infrastruktur yaratmağa, nə də əsas səhiyyə xidmətlərini təmin etməyə maliyyə ayıra bilmirlər. "Bu, bizim üçün böyük bir böhrandır. Bu, təkcə iqtisadi problem deyil, həm də kifayət qədər maliyyələşmənin olmaması səbəbindən dayanıqlılıq və davamlı inkişaf üçün yaranan insan böhranıdır. Bu o deməkdir ki, biz maliyyələşdirmə məsələsini həll etmədikcə, çoxlu insanın həyatını təhlükəyə atırıq, onları əsas xidmətlərindən və iqtisadi imkanlardan məhrum edirik və nəticə etibarilə dayanıqlı inkişafla xarakterizə olunan gələcəyə sürətlə çatmağımıza mane oluruq. Beləliklə, bu məsələ çox təcili həll olunmalıdır. Son bir neçə gündə biz bu mövzu ətrafında geniş müzakirələr apardıq", - deyə Milind Taneja vurğulayıb.

COP29 Gənclər İqlim Çempionu Leyla Həsənova çıxışında iqlim dəyişikliyinin gənclər üçün yaratdığı çağırışlardan danışaraq, onların bu qlobal problemin həllində fəal rol oynaya biləcəyini bildirib.

"Gənclərin ekoloji təşəbbüslərdə iştirakı və innovativ həll yolları tapmaq bacarığı iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynayır.

Davamlı inkişafın təmin olunması üçün gənclərin maarifləndirilməsi və onların qərar qəbuletmə prosesinə cəlb olunması vacibdir", - deyə Leyla Həsənova diqqətə çatdırıb.

Digər çıxış edənlər öz ölkələrinin təcrübələrindən və mövcud problemlərdən danışıblar.

Azərbaycan.- 2025.- 16 mart (№58).- S.2.